# ROALD DAAL

# MÖHTƏŞƏM CƏNAB TÜLKÜ



Tərcüməçi:
Ramiz Abbaslı

qanun nəşriyyatı

ROALD
# DAHL

FANTASTIC
# MR. FOX

Yaxınlıqdakı üç fermerin təsərrüfatında hər gün oğurluq qeydə alınırdı. Fermerlər oğrunun kimliyini bilirdilər — bu, Möhtəşəm Cənab Tülkünün işiydi. Fermerlər hər biri təkbaşına nə qədər əlləşsə də, oğrunu tuta bilmirdi. Belə olanda kök Boqqis, balacaboy Bans və arıq Bin öz qüvvələrini birləşdirdilər. Nəticədə isə Cənab Tülkü ailəsiylə birlikdə mühasirəyə alındı. Amma fermerlər unudurdular ki, mühasirəyə saldıqları hansısa adi bir tülkü deyil, Möhtəşəm Cənab Tülküdür. Mühasirəyə düşmüş tülküləri bu fəlakətdən yalnız hansısa qeyri-adi bir plan xilas edə bilərdi.

# Kitabın içindəkilər

1 ÜÇ FERMER ............................................ 7
2 CƏNAB TÜLKÜ ............................................ 12
3 GÜLLƏBARAN ............................................ 16
4 QORXUNC KÜRƏKLƏR ............................................ 22
5 DƏHŞƏTLİ TRAKTORLAR ............................................ 29
6 YARIŞ ............................................ 34
7 O BİZİM ƏLİMİZDƏN QAÇIB QURTARA BİLMƏYƏCƏK ............................................ 39
8 TÜLKÜLƏR YEMƏYƏ HEÇ NƏ TAPMIR ............................................ 42
9 CƏNAB TÜLKÜNÜN PLANI ............................................ 46
10 BOQQİSİN BİR SAYLI TOYUQ FERMASI ............................................ 50
11 ANA TÜLKÜ ÜÇÜN SÜRPRİZ ............................................ 58
12 PORSUQ ............................................ 61
13 BANSIN BÖYÜK ANBARI ............................................ 67
14 PORSUĞUN ŞÜBHƏLƏRİ ............................................ 76
15 BİNİN GİZLİ ŞİRƏ ANBARI ............................................ 80
16 XİDMƏTÇİ QADIN ............................................ 88
17 BÖYÜK BAYRAM ŞƏNLİYİ ............................................ 94
18 HƏLƏ DƏ GÖZLƏYİRLƏR ............................................ 105

# 1
# ÜÇ FERMER

Vadidə üç fermer yaşayırdı. Ferma sahibləri fərasətli adamlar idilər. Onlar varlıydılar, amma xasiyyətləri murdar idi. Yəqin ki, heç kim ömründə belə murdar adamlara rast gəlməyib. Onlardan birinin adı Fermer Boqqis, digərinin Fermer Bans, üçüncüsünün isə Fermer Bin idi.





Boqqisin toyuq ferması var idi. Öz fermasında o, minlərlə toyuq-cücə saxlayırdı. Boqqis çox kök idi, çünki hər gün səhər yeməyi vaxtı suda bişirilərək kartof püresinə hopdurulmuş üç çolpa yeyirdi. Onun nahar və şam yeməyi də səhər yeməyindən fərqlənmirdi: suda bişirilərək kartof püresinə hopdurulmuş üç çolpa.

Bansın qaz və ördək ferması var idi. Öz fermasında o, minlərlə qaz və ördək saxlayırdı. Bu adam yekəqarın liliputa oxşayırdı. Boyu o qədər balaca idi ki, ən dayaz üzgüçülük hovuzunda belə çənəsi suyun altında qalırdı. O, əsasən



kömbə və qazın qaraciyəri ilə qidalanırdı; qazın qaraciyərini əzib xəşilə oxşayan iyrənc bir şey düzəldir, sonra onu kömbənin içinə doldurub yeyirdi. Bu cür qidalanırdı deyə mədəsi həmişə ağrıyırdı, xasiyyəti də murdar idi.

Fermer Bin isə öz təsərrüfatında hind quşu saxlayırdı, onun böyük bir bağı da var idi; fermada minlərlə hind quşu bəslənirdi, bağda isə çoxlu alma ağacı əkilmişdi. Bin yemək yemirdi, acanda ancaq öz bağındakı ağacların meyvəsindən çəkilmiş alma şirəsi içirdi. Ona görə də



çox arıq idi: bir dəri, bir sümük. Amma o biri iki fermerdən ağıllı idi.

Balaca uşaqlar fermerləri küçədə görəndə səs-səsə verib xorla oxuyurdular:

*Boqqis, Bans, bir də Bin.*
*Biri kök, biri gödək, o biri arıq.*
*Necə də fərqlidirlər! Fəqət fərq etməz.*
*Bir bezin qırağıdırlar: üçü də xəsis.*
*Bədəməl fırıldaqçılar.*

